*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 348-354*

https://doi.org/10.62837/2024.10.348

**ÜLKƏR İMAN QIZI ƏLİYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Folklor İnstitutu**
**e-mail: aliyevaulkar2020@gmail.com**
**ORCID ID: 0000-0002-2989-8702**

# ŞƏHƏR FOLKLOR MƏTNLƏRİNİN YARANMA YOLLARI

Qeyd etmək lazımdır ki, şəhər folklorunun konkret nümunələri də mövcuddur. Ancaq o qədər geniş deyildir. Çünki folklor variasiyalaşan praktik prosesdir. Yəni bir məkanda yaranan örnək o məkana aid olaraq xüsusiləşmir, sürətlə yayılır və bütün folklor arealı olaraq nəinki şəhər, hətta ölkədən də kənara çıxır. Xüsusilə folklorda dünya motivlərinin araşdırılması eyni bir motivin dünya xalqlarının folklorunda az qala eyni şəkildə yayılmasını nümayiş etdirir. Hətta yazılı və şifahi eposlarda da bu spesifika özünü göstərir. Misal üçün Homer tərəfindən qələmə alınan "İliada" və "Odisseya" ilə yazıya köçürülən "Dədə Qorqud kitabı"ndakı Polifem-Təpəgöz müqayisələri (Odisseya) bunu təsdiq edə bilər (1, 49-57).

Ümumiyyətlə bu müqayisələri aparan Ə.Sultanlı doğru olaraq bu qənaətə gəlir ki, "Eyni təkrarlamaları "İliada, "Odisseya" və bütün xalqların qədim dastanlarında görmək olar" (1, 33).

Ancaq sırf şəhərə məxsus müəyyən folklor örnəkləri də diqqətdən qaça bilməz. Şəhərdə keçirilən mərasimlər, karnaval və maskaradlar Şəhər folkloru kimi konkret nümunələrdir.Azərbaycanın ictimai-mədəni həyatında dünyada keçirilən maskarad və karnavallar səciyyəvi olmadığı üçün Şəhər folklorunu əsas etibarilə şəhər mərasimləri təşkil edir. Bunlardan Novruz mərasimləri, Yeni ilin qeyd olunması və s. bu kimi mərasimlərə diqqət yetirmək olar. Aydındır ki, Novruz mərasimləri nəinki ölkəmizdə, eyni zamanda bütün Şərqdə qeyd olunur. Türk xalqlarının bayramı kimi də xüsusi şəkildə nəzərə çarpır (2, 150-154 ).

Azərbaycanın paytaxtı kimi Bakı şəhərində keçirilən Novruz bayramının qarşılanma gecəsi kütləvi mərasim olaraq qeyd olunur. Mərasim televiziya və radio, eyni zamanda virtual şəbəkələr vasitəsilə canlı yayımlanır. Yazın gəlişi qeyd olunur, bəzən Bahar qızı obrazı da mərasimdə diqqət çəkir, qədim ənənələrə məxsus zorxana nümayiş olunur, tonqal qalanır, ümumiyyətlə Novruzun bölgələrdə də keçirilən bütün obraz və atributları mərasimin daxilində təcəssüm olunur, ayrıca olaraq bahar geyimində nəğmələr oxunur, günün zirvə saatında fişəng yağmuru ilə göy üzü bəzənir (3, 1, 2).

Bakı şəhərində keçmişdə də Novruz bayramı xüsusi təntənə ilə qeyd olunmuşdur. H.Sarabski yazır ki, "Novruzu bir ay əvvəldən qarşılamaq Bakıda bir

adət idi. Həftənin hər çərşənbə axşamı hər evin həyatində və yaxud darvazasında tonqal qalanardı" (4, 127).

Ancaq qeyd etməmək olmaz ki, şəhər folklorunu xüsusi səciyyə ilə incələmədən bütün mərasim faktorunu şəhər folkloruna aid etmək olmaz. Çünki müəllifin Bakı şəhərində təsvir etdiyi bu adətlər demək olar ki, əksər yerlərdə eyni şəkildə həyata keçirilir və etnokulturoloji vəhdət təşkil edir. Eyni zamanda boz ayda tonqal yandırılması yalnız şəhərdə deyil, bölgələrin bir çoxunda da mövcuddur (5, 185).

Bu səbəbdən şəhər folklorunu tədqiq edərkən səciyyəvi xüsusiyyətləri ayıra bilmək çox vacib məsələdir.

Yeni il gecəsində, yəni miladi təqvimin dəyişməsi münasibətilə də paytaxt şəhərimizdə eyni kütləvi izdiham müşayiət olunur. Öncə şəhər bəzədilir, yeni ilə aidiyyəti olan obraz və atributlar burada iştirak edir, yolka, Şaxta baba, Qar qız və s. diqqət önündə olur, bir çox insanların – böyüklərin və uşaqların başında Şaxta baba, xüsusilə də Santa-Klausun çit, ipək papaqları olur. Yeni ilə məxsus bütün özəlliklər şəhər daxilində keçirilir, paradlar təşkil olunur, saat 12-yə çatdıqda xüsusi coşqu ilə mərasim qeyd olunur, miladi təqvimdə il dəyişir, göy üzü fişənglərlə al-əlvan olur (6).

Təbiidir ki, bu mərasimlərdə salam və salamatlaşma əsas faktor olaraq icra olunur, görüş, dilək və alqışlar səmimi həyəcanla müşaiət olunur.

Bu mərasimlər bölgələrdə əsas etibarilə kiçik istisnaları çıxmaq şərti ilə evlərdə qeyd oluursa, şəhər mühitində gecədən-səhərə kimi kütləvi olaraq seçilmiş küçə şəraitində həyata keçirilir. Bu baxımdan Şəhər folklorunun konkret örnəkləri kimi diqqətə alına bilər.

Şəhər folkloruna daxil edilən folklor janrlarından bədihə və yaxud meyxana janrı da bu örnəklər kimi qeydə alına bilər. Bakı kəndlərində yaranan konkret nümunələr olsa da bu janr Bakı mühitində yaranmış, daha sonra müxtəlif bölgələrə yayılmışdır. Bu baxımdan meyxana da şəhər folkloru hesab oluna bilər. Salam və salamatlaşma mövzusu bu örnəklərdə də geniş şəkildə yayğındır. Xüsusilə meyxanalar deyişmələr üzərində qurulduqda bu kimi ünsiyyət modeli müşahidə olunur. Konkret örnəklərə diqqət yetirmək üçün təqdim etdiyimiz mənbəni gözdən keçirmək olar (7).

Şəhər folkloru nümunəsi kimi təəssürat əldə etmək üçün nəzərdə tutulan şəhər gəzintilərini də nəzərdə tutmaq olar. Praktik şifahi örnəklər kimi xüsusilə turist gəzintilərinin təşkil olunmasına diqqət yetirilə bilər. Şəhərimizin qədim abidələrini və s. yerləri gəzərkən yaranan folklor janrları da diqqət çəkir. Misal üçün, İçərişəhər gəzintilərində bir çox rəvayət və əfsanələr və s. folklor janrları yeni şəkildə turistlərə təqdim olunur, Qız qalası haqqında olan əfsanələr də xarici ölkələrin vətəndaşlarına müxtəlif qiraət vasitəsiylə çatdırılır. Eyni zamanda şəhər qalasının bürc və mağzallarının izahı, qalanın istehkam olaraq təşkil olunması və qala haqqında tarixi

rəvayətlər, şəhər mozaikalarının rəmzlərinin açılışı da Şəhər folklorunun əhəmiyyətini inikas etdirir.

İçərişəhərdə şöhrətli sənətkarımız Ə.Vahidin büstünü dövrələyən turistlər onun yaradıcılığı, şifahi söz qabilliyyəti, bədahətçiliyi və həyatı haqqında olan rəvayət və hekayətləri heyranlıqla dinləyirlər. Təsadüfi deyil ki, "Turizmin əsasları" kimi geniş kitab hazırlayan İ.Hüseynov, N.Əfəndiyevaqeyd edirlər ki, "...mərhələ turizm fəaliyyəti və ekskursiyalar zamanı qazanılmış təəssüratların yekunlaşdırılmasıdır. Bu mərhələdə iştirakçılar təbiətimizin flora və faunası haqqında çoxlu əfsanələr eşidirlər (8,364).

Təbiidir ki, bu mühakimə qeyd etdiyimiz kimi, İçərişəhərdə mövcud olan qədim tarixi abidələrə, qala, büst, hamam və s. kimi mədəni-arxitektura tikililərinə də aiddir.

Qobustan Qaya təsvirlərini, Qaval daşı və s. qədim abidələri izləmək üçün Azərbaycana gələn turistlər burada bir çox bilgilər almaqla, eyni zamanda bu mövzuda rəvayət və əfsanələrlə tanış olurlar ki, bu da Şəhər folkloruna daxil edilə bilər. İ.Hüseynov, N.Əfəndiyeva yazırlar ki, "Bakıdan 60 km. cənubda yerləşən Qobustan qaya təsvirlərinə baxmaq üçün ildə 400 mindən çox insan bu əraziyə səyahət edir (8, 67).

Eyni zamanda yerli əhali də bu kimi gəzintilərdə zaman-zaman iştirak edir və şəhər folklorunun zənginləşməsində mexaniki-assosiativ və nəzəri-paraktik baxımdan mühüm rol oynayırlar. Bu kimi ünsiyyət formasıfolklorumuzun xüsusilə sözlü janrları olan deyim, məsəl, atmaca, lətifə, əfsanə və rəvayətlərin müxtəlif şəkildə meydana çıxmasına, hətta yenidən cilalanıb yeni nümunələrə çevrilməsinə səbəb olur.

Təbiidir ki, bu gəzintilərdə də ünsiyyət həlledici rol oynayır, bu baxımdan salam və salamatlaşma məzmunu mexaniki-assosiativ və etik tələbat olaraq burada da özünü göstərir.

**Şəhər infrastrukturunu özündə daşıyan folklor nümunələri.** Biz, Şəhər folklorunu müəyyən etmək üçün şəhər bilgilərini özündə daşıyan, şəhərə yönəli folklor mətnlərini tədqiqata cəlb etməklə də şəhər tipli lokal folklorukonkretləşdirməyi nəzərdə tutmuşuq.Ancaq əvvəldə də qeyd etdiyimiz kimi "b" və "c" puntu yardımçı funksiya daşıyır, bu cəhətdən xüsusi ağırlıq təşkil etməsə də şəhər folklorunu səciyyələndirmək baxımından tədqiq olunması gərəklidir.Eyni zamanda mövzumuz daxilində salam və salamatlaşma (xudahafiz etmə) məzmunu yer alan folklor janrlarına nəzər yetirmək diqqətdə saxlanmalıdır. Bundan əlavə folklor örnəklərində xəlifə, padşah, şəhər hakimi və s. bu kimi vəzifələrin məkanı işarələndikdə təbiidir ki, bu situasiyada şəhər folklor bilgilərini müşahidə etmiş oluruq. "Bəhlul Danəndə lətifələri"ndə aydındır ki, daha çox xəlifə obrazı ilə qarşılaşmalar lətifə strukturunu təşkil edir. Çünki Şərq aləmində, eləcə də Azərbaycanda yayılan bu lətifələrə görə tarixi şəxsiyyət olan İslam xəlifəsi Harun ər-

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.348-354*

Rəşid Bəhlulun doğma qardaşıdır. Bu əlbəttə folklor spesifikasından irəli gəlir. Ancaq lətifələrdə Bəhlul Danəndə ilə Harun ər-Rəşid arasında müxtəlif mövzularda məfkurədən doğan binar oppozisiya nümayiş olunur ki, burada şəhər, saray, saray yaxınlığı, şəhər hamamı və s. şəhər tipli məkanlar işarələnir. Şəhər məkanlarında cərəyan edən səlam və səlamatlaşma mövzulu lətifələrdən “Heç ölü də dirilərmi?”, “Xeyir verənə xeyir, zərər verənə zərər”, “Bəhlulun xələti” (9, 19, 20, 44, 45, 93, 94) və s. örnəklər görüşmənin və ayrılmanın, səlamın və səlamatlaşmanın müxtəlif şəkillərini, funksional formalarınıözündə ehtiva edir.

Biz “Molla Nəsrəddin lətifələri”ndə də bu tipli örnəklərə rast gəlirik. “Göyə niyə dırmaşmısan?”, “Gör, bədsuyum kimdi?”, “Ya eşşək ölər, ya Teymur” (10, 11, 12,13, 40, 41) və s.

Bu lətifələrdə də səlam və səlamatlaşmanın funksional örnəklərinə rast gəlmək olur. Əmir Teymura ova çıxarkən rast gələn Mollanı Teymur zindana atdırır ki, bədsuyum adamdır, ancaq ovu uğurlu olur, onu zindandandan çıxarıb yanıldığını deyir. Molla Nəsrəddin də qarşılığında Teymurun özünün onun rastına çıxan bədsuyum olduğunu deməsi ironik kontekstdə səlamlaşmanın və səlamatlaşmanın tərs anlamlarını semantik səviyyədə işarələyir.

“Ya eşşək ölər, ya Teymur” lətifəsində isə səlamatlaşmanın başqa semantik layını görürük. Belə ki, Əmir Teymurdan beş illik məvacibini alaraq ondan eşşəyi danışdırmaq üçün beş illik ayrılması səlamatlaşma məzmununu ifadə edir.

“Göyə niyə dırmaşmısan?” lətifəsində isə bu mövzunu əhatə edən çox qiymətli orijinal örnəyi müşahidə edirik ki, Şəhər folklorunun dəyərli nümunəsi hesab olunması baxımından bütünlüklə təqdim etməyi münasib bilirik: “Molla Nəsrəddinin Teymur Lənglə ilk görüşü haqqında belə bir rəvayət də vardır:

Teymur mollanı saraya çağırtdırır. Molla içəriyə girib görür ki,otaq adamla doludur. Amma hamı dövrə vurub yerdə oturub, təkcə Teymur əyləşib uca bir taxtın üstündə. Tez baş əyib deyir:

–Salam əleyküm,Ya Allah!

Teymur deyir:

–Mən Allah deyiləm, ay kişi! Mən…

Molla onun sözünü ağzında qoyub deyir:

–Qurban olum sənə, ya cənab Cəbrayıl!

Teymur deyir:

– A kişi, nə danışırsan? Mən niyə Cəbrayıl oluram?

Molla deyir:

–Başa düşmürəm. İndi ki, nə Allahsan, nədəki mələk. Onda düş, adam kimi otur adamların içində də. Daha göyə niyə dırmaşmısan?” (10, 11).

Təbiidir ki, bu kontekstdə Molla Nəsrəddin surətinin xarakteristikasına məxsus tənqidi məzmunu ibarə, kinayə və yaxud tərs qavramla ifadə etməklə bərabər şəhərdə

salam formasının ironik şəkildə çatdırılması çox yüksək semantik çalarla təqdim olunmuşdur.

Bu örnəklərdə salam və salamatlaşmanın müxtəlif funksional səviyyələri xalq dilində çox incəliklə ifadə olunmuşdur.

Şəhərdə mövcud olan qala və s. baxımından "Qız qalası" əfsanələri də kifayət qədər diqqətə layiqdir. P.Əfəndiyev bu əfsanələr haqqında yazır ki, "Azərbaycanın hər guşəsində belə qalalar, sığnacaqlar...vardır ki, hamısı haqqında da müxtəlif əfsanələr söylənir...qalaların bir çoxu Qız qalası adlanır. Bunlara Şamaxı, Qutqaşen, Şəki, Qax, Qazax, İsmayıllı, Qubadlı, Gədəbəy və s. rayonlarda rast gəlinir (111, 132-133).

Qız qalaları ilə bağlı tədqiqat aparan İ.Tağıyevin bildirdiyinə görə "Azərbaycanda 50-dən çox, İstanbuldan Pakistana qədər olan ərazilərdə isə 200-dən çox Qız qalası vardır" (12).

Bu baxımdan Qız qalası haqqında olan əfsanələr yalnız Bakı şəhərində olan Qız qalasına aid deyil. Hətta ola bilər ki, bu əfsanələr bir-biri ilə kontaminasiya olunmuş və yeni əfsanələr meydana gəlmişdir. Buna görə də bu əfsanələrin müəyyən bir qismini yalnız içində şəhər bilgisi keçən əfsanələrdən hesab etmək mümkündür. Yəni birbaşa deyil, dolayısı ilə şəhər folkloruna aidiyyəti olması daha məqbul sayıla bilər.

Beləliklə, yuxarıda klassifikasiyasını qurduğumuz kimi Şəhər folkloru bu şəkildə öyrənilə bilər. Folklor sürətlə yayılan, eyni zamanda situasiya baxımından eyni vaxtda müxtəlif yerlərdə yarana bilən obraz, janr, motiv (mifologem) və süjetdən ibarət toplumsal sənətdir. Bu cəhətdən Şəhər folklorunun konkret nümunələrindən daha çox, Şəhər folklorunun şəhərə məxsus tipi və folklor janrlarının səciyyəsi kimi özünəməxsusluğu əsas yer tutur. Yalnız bir qism örnəklər mövcud olur ki, onlar da şəhərdə qalmır, praktiki olaraq folklor spesifikasına uyğun olaraq geniş areala yayılıb müxtəlif variasiya təşkil edir.Şəhər infrastrukturunu özündə daşıyan folklor örnəklərinə də diqqət yetirmək o baxımdan ehtiyac doğurmuşdur ki, bu nümunələrdə şəhər mühitinə bağlılıq olduğu üçün mövzumuzla müəyyən qədər əlaqəlidir.Buna görə də əsas etibarilə folklorun şəhərə məxsus tipi bu məqalədə əsas üstünlük təşkil etmiş, digərləri isə köməkçi funksiyada iştirak etmişdir. Gələcəkdə bu istiqamətdə yeni tədqiqatların aparılması fikrimizcə, çox vacibdir. Çünki folklor fərddən topluma doğru gedən bir proses olduğu üçün kənd-kənd, şəhər-şəhər, ölkə-ölkə araşdırılması və səciyyəvi xüsusiyyətlərinin təhlilə cəlb olunması zəruridir.

## ƏDƏBİYYAT

1. Sultanlı Ə. "Kitabi- Dədə Qorqud" və qədim yunan dastanları. Bakı: Elm, 1999.
2. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı: Səda, 2002.

3. Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyi / "Xalq qəzeti", 20 mart, 2012 -№ 64.- s.1-2.
4. Sarabski H. Köhnə Bakı. Bakı: Yazıçı, 1982.
5. Novruz bayramı Ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008.
6. Elektron resurs: Azərbaycan paytaxtı 2022-ci ili möhtəşəm atəşfəşanlıqla qarşıladı / https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycan-paytaxti-2022-ci-ili-mohtesem-atesfesanliqla-qarsiladi-video-1640983886
7. Meyxanalar. Bakı, Yazıçı, 1993.
8. İlqar Hüseynov, Nigar Əfəndiyeva Turizmin əsasları. Dərslik. Bakı: "Mars-Print" nəşriyyat-poliqrafiya müəssisəsi, 2007.
9. Bəhlul Danəndə lətifələri. Bakı: Altun kitab, 2005.
10. Molla Nəsrəddin lətifələri. Bakı: Öndər nəşr, 2004.
11. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif nəşr, 1981.
12. Elektron resurs: Qız qalası qondarma addır, biz onun tarixi adını qaytarmalıyıq (İsgəndər Tağıyevlə müsahibə) https://www.aqra.az/az/qiz-qalasi-qondarma-addir-biz-onun-tarixi-adini-qaytarmaliyiq!

**Ülkər İman qızı Əliyeva**

## Şəhər folklor mətnlərinin yaranma yolları

### Xülasə

Bu araşdırmada şəhər folkloruna aid edilə bilən bir qism konkret nümunələrə nəzər yetirilmiş və gərək olduqda bu örnəklər mövzunun aydınlaşdırılması üçün təqdim edilmişdir. Bu məqalədə Şəhər infrastrukturunu özündə daşıyan folklor nümunələrinə də nəzər salınmış, özündə şəhər bilgilərini ifadə edən örnəklər tədqiq olunmuşdur.

Təbiidir ki, Şəhər folkloru mövzumuz etibarilə səlam və səlamatlaşma (səlamatlıq diləmə) üzərində nəzəri-praktiki baxımdan təhlil olunmuşdur. Gələcəkdə bu mövzunun daha da geniş şəkildə işlənməsini nəzərdə tutmuş, Azərbaycan folklorunun Şəhər folkloru kimi də araşdırılmasını münasib bilmişik.

**Açar sözlər:** şəhər, şəhər folkloru, folklor örnəkləri, virtual folklor, şəhər folklor arealı

**ULKAR IMAN GIZI ALIYEVA**

## WAYS OF CREATION OF URBAN FOLKLORE TEXTS

### SUMMARY

In the research work some specific examples, which can be attributed to urban folklore, are looked through and if it is necessary these examples are provided to clarify the topic. In this article the examples of folklore that contain urban infrastructure are looked through and the examples that express urban knowledge are

studied. Naturally, urban folklore has been analyzed from the theoretical and practical point of view on the topic of greetings and taking care.

In the future we intend to develop this topic more widely and we consider it appropriate to study Azerbaijani folklore as urban folklore.

**Keywords:** city, urban folklore, folklore samples, virtual folklore, urban folklore area

**УЛЬКЕР ИМАН КЫЗЫ АЛИЕВА**

**СПОСОБЫ СОЗДАНИЯ ТЕКСТОВ ГОРОДСКОГО ФОЛЬКЛОРА**

**РЕЗЮМЕ**

В данном исследовании были рассмотрены некоторые конкретные образцы городского фольклора и при необходимости эти примеры приводились для уточнения темы. В этой статье также рассматриваются примеры фольклора, отражающие городскую инфраструктуру, и исследуются примеры, выражающие городские знания.

Естественно, городской фольклор был проанализирован с теоретической и практической точки зрения на тему приветствие и прощание (желания благополучия). В дальнейшем мы намерены развивать эту тему более широко, и считаем целесообразным изучение азербайджанского фольклора как городского фольклора.

**Ключевые слова:** город, городской фольклор, фольклорные образцы, виртуальный фольклор, городской фольклорный ареал.

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: fil. elmləri doktoru, professor Seyfədin Rzayev**
**tərəfindən çapa tövsiyə olunmuşdur**